V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

1. Giriş əvəzi düşüncələr

Bütün ruhu, varlığı, düşüncələri ilə yurda bağlı olan söz adamı dünyanın harasında olur-olsun, mənəvi həyatı ilə ömrünü elə yurdunda, vətənində yaşayır. Yuxularında uşaqlıq çağlarını, çoxdan ayrılmış doğmalarını, uşaqlıq yoldaşlarını, bir sözlə, vaxt baxımından çox uzaqlarda qalmış həyatını uzun seriallar kimi təkrarlayır, təzədən yaşayır. Görünür, elə insanın yaddaşını qoruyan amillərdən biri də yuxu fenomenidir. Amma ikinci bir fenomen də var.

İnsanın həyat amalı, ümumiyyətlə, insanı ucalığa səsləyən missiya da söz adamını məcbur edir ki, düşüncələrində əks-səda verən duyğuları sözə gətirərkən daha çox yaddaşına güvənsin. Yaddaş isə bizə, xüsusilə ömrünün təfsir zamanını yaşayan, yəni yaşamının yuxarı mərtəbələrinə çatan insanlar üçün 40 yaşa qədər gördüklərini daha çox qoruyub saxlayır. Beləliklə, yazıçı Ulduz Qasımın yaradıcılığının əsasını təşkil edən mühitin - Qarabağın əsas obraza çevrilməsinin səbəbi də aydın olur.

Ulduz Qasım məsafəcə bizdən uzaqda yaşayır. Məzmunca, mahiyyətcə Qarabağdan ayrıldığı günlərdən üzü bəri - 80-ci illərin ortalarından başlayaraq qürbət həyatının içərisində ayrıldığı zaman qədərki dövrü bütün canlılığı ilə qoruyub saxlayıb.

Yazıçının əsərlərində Qarabağ, Cəbrayıl, doğulub-böyüdüyü Mehdili kəndi, ali təhsil aldığı paytaxt Bakı və eləcə də indi həyatını yaşadığı Rusiya - Moskva bütün rəngarəngliyi ilə xəritə yaradır. Və bu xəritədə biz bir neçə alovlu nöqtələr görürük. Və həmin alovlu nöqtələrin hamısından ayrılan şüalar məhz Cəbrayılın Mehdili kəndində qovuşur. Qarabağın Araza söykənən küncündə Mehdili odlu qövs kimi görünür. Bu qövsün yanan ocaqlarından ayılan qığılcımlar, qorlar Ulduz Qasımın sinəsində ocağa çevrilir; əlbəttə, söz ocağına. Beləliklə, Ulduz Qasımın daha bir romanı - *"Solmayan Nərgiz"*lə (Bakı, 2020) üz-üzəyik.

Kitabın redaktoru əməkdar incəsənət xadimi, şair-publisist Vaqif Bəhmənlidir. Zənnimcə, kitab üçün nəşriyyat annotasiyasında onun da dəstxətti görünür: *"Oxuculara təqdim olunan "Solmayan Nərgiz" romanı Moskvada yaşayan azərbaycanlı yazıçı Ulduz Qasımın "Qürbət zöhrəsi" və "Xocalı şikəstəsi"ndən sonra üçüncü irihəcmli əsəridir. Bu romanı müxtəlif məkan, zaman və hadisələr müstəvisində təsvir olunan Qarabağ insanları haqqında trilogiyanın növbəti hissəsi də adlandırmaq olar".* Hər halda əsərin trilogiyanın üçüncü hissəsi olmasını təsdiq edən qənaətlə Vaqif Bəhmənli də şərikdir. Çünki bu əsərləri birləşdirən bir adda ümumi məzmunda təsdiqini tapır; *"Qarabağ"*. Bəli, söhbət Qarabağdan, elə annotasiyada deyildiyi kimi Qarabağ insanından gedir. Onun bir qərinə qədər davam edən ağrı və acısı türk yazarının dediyi kimi qanı süzülən yara ilə müşayiət olunur.

* * *

Vətənlə bağlı məlumatları vətəndən uzaqda yaşayan yazıçı ən müxtəlif yollarla əldə edə bilər. Amma bu gün bu müxtəlif yollar ifadəsi bir əsas yolla anlamı ilə əvəzlənib. Bu da sosial şəbəkədir. Yazıçının maraqlana biləcəyi hər hansı bir ərazi və hadisə istənilən andaca nəinki məkanı, təsir dairəsi, hadisənin içərisində olanlar - kimliklər belə, hətta video materiallarla birlikdə yazıçının məlumat bazasına çevrilir. Əlbəttə, bütün bunlar yazıçı üçün tam məlumat mənbəyi ola bilməzdi, əgər yazıçı ruh etibarı ilə axtarışında olduğu yerə, məkana, zamana bağlı olmasaydı.

... Ulduz Qasım ədəbi arenada *"Ulduz"* olmaq istəyi ilə yazmayıb. Yaradıcılığının bu günkü zamanınacan bəlkə heç məşhurluq iddiası da olmayıb. Ancaq sonsuz zəhmət, sözə ilahi şövqlə bağlılıq, yaratdığı əsərlərin mənsub olduğu xalqı bütün canlılığı ilə göstərə bilməsi sayəsində özü istəsə də, istəməsə də, onu tanıtmışdır. Özü də bütün yaradıcılıq eşqi, bütöv yazıçı olmaq obrazı ilə tanıtmışdır.

İndi yaşımızın elə vaxtıdır ki, bəzən adi bir söz üçün də, yaddaşımızda işıq kimi yanıb-sönən düşüncənin də təkrar üstünə qayıda bilmirik. Amma Ulduz Qasımın yazı eşqi o qədər güclüdür ki, o, demək olar ki, yaddaşın fiziki ağrısını çəkmir, o başqa məsələdir ki, Ulduz Qasım bütün yaradıcılığı boyu yaddaşın mənəvi ağrıları altında yaşayıb.

Onun yüksək amalı, hədsiz zəhmətsevərliyi imkan verib ki, inadlı yaradıcılığı ilə dəyərli əsərlər yaratsın. Doğrudur, elə bir yazıçı, demək olar ki, bu günəcən Azərbaycan oxucusunun sevdiyi yazıçı olmasına baxmayaraq əsərləri ədəbi tənqidimizin birmənalı şəkildə deyirəm ki, diqqətindən kənarda qalıb. Bunun da müxtəlif səbəbləri ola bilər. Hər halda bunu yazıçıya münasibətdə ən azı biganəlik, laqeydlik kimi də qiymətləndirmək olar. Bu hələ hamısı deyil. Hər halda Ulduz Qasım kifayət qədər nüfuzlu söz sahiblərinin də diqqətini cəlb edib.

Vaqif Bəhmənli, Elçin Mehrəliyev, Tahir Aydınoğlu, Rəhilə Gülgün, Türkiyədən İmdat Afşar və bir çox digər qələm dostları onun yaradıcılığına biganə olmayıblar. Kitablarına *"ön söz"* yazıb, redaktəsini üzərlərinə götürüb, Azərbaycanda nəşrinə rəvac veriblər. Onun haqqında yazmış müəlliflərdən bir çoxunun qeydləri haqqında biz artıq bəhs etmişik. Amma *"Solmayan Nərgiz"*lə bağlı yazılanlar da, zənnimcə, elə buradaca oxucu diqqətinə çatdırılsa, ədalətli olardı.

Əvvəlcə yazıçı-publisist, filologiya elmləri doktoru Elçin Mehrəliyevin redaksiyamıza göndərdiyi məktubdan bəzi qeydlərə diqqət edək: *"Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfliyə: Ulduzu xatırladım, o yazmasa, yaşaya bilməzdi". Doğru deyir Elçin Mehrəliyev. Hələ ilk gəncliyindən tanıdığı, gördüyü, ilk qələm təcrübələrinin mətbuata yol açmasına köməyini əsirgəmədiyi Ulduzun bir neçə əsərinin adını çəkir: "Mən Ulduzun son illər nəsrimizin kifayət qədər dəyərli nümunələrini yaratdığını müşahidə edirəm. Onun "Qürbət zöhrəsi", "Xocalı şikəstəsi", "Solmayan Nərgiz", "Qarabağda qiyamət" adları ilə nəşr olunmuş romanları göstərir ki, nəsrimizin çox parlaq səhifələrini yaratmış müəllif ədəbiyyat araşdırıcıları tərəfindən etiraf olunmalıdır".* Elçin Mehrəliyev *"Kredo"* qəzetinin ədəbi fəaliyyətinə də toxunur: *"Hörmətli baş redaktor! Əvvəla, qeyd edim ki, sizin söz-sənət aləmində külüng vuran ziyalılarımıza diqqətli münasibətiniz, harada yaşayıb-yaratmasından asılı olmayaraq, ədəbi ictimaiyyətə təqdim etdikləri əsərlər haqqında ilkin və maraqlı düşüncələriniz informasiya xidməti ilə yanaşı, cari ədəbi prosesin öyrənilməsi baxımından olduqca faydalıdır və əlbəttə ki, "Kredo"nun bu missiyası təqdirəlayiqdir".* Görkəmli alim və yazıçı, bundan sonra son vaxtlar bizim "Kredo" qəzetində Ulduz Qasımın yaradıcılığına həsr olunmuş qeydlərə də münasibətini bildirir: *"Bu günlərdə qəzetinizin müxtəlif saylarında dərc edilmiş növbəti yazı (daha doğrusu, silsilə yazılar) marağıma səbəb oldu:* siz *"Lələdağ gücü", "Sözün bahar gülləri", "Məqsədə doğru inamla", "İlk dalğanın həyəcanı", "Sevgi işığında" və s. kimi məqalələrinizdə həm bir yazıçı-publisist, həm də bir tənqidçi-ədəbiyyatşünas kimi uzun illər Rusiyada yaşayan yazıçı-jurnalist Ulduz Qasımın həyat və yaradıcılığına sərfnəzər yetirir, xəbərsiz qaldığımız əsərlərini təhlilə cəlb edirsiniz. Həmin yazıların qəhrəmanlarının bir vaxtlar, dəqiq desəm, 1980-ci illərdə ADU-nun Jurnalistika fakültəsində oxuyan, bir jurnalist tələbə kimi mənim də çalışdığım "Azərbaycan gəncləri" qəzetində təcrübə keçən, seçdiyi peşəyə ürəkdən bağlandığını ilk yaradıcılıq axtarışları və uğurlu yazıları ilə təsdiq edən, ağbəniz, suyuşirin, sadə, səmimi, ciddi, təmkinli Ulduz İmanova olduğunu öyrəndim. Hələ o zaman, yəni düz 40 il bundan əvvəl Ulduz beşinci kursda oxuyarkən mənim timsalımda jurnalistliyi, jurnalistik fəaliyyətini də mövzuya çevirmişdi. O zaman mən təxminən yarım milyona yaxın tirajla çap olunan "Azərbaycan gəncləri" qəzetində Elm və Təhsil şöbəsinin müdiri vəzifəsində işləyirdim. Və bir sıra yazılarım Ulduzun marağına səbəb olmuşdu. Təcrübəçi tələbə haqqımda yazdığı "Dünyaya gəlmişəm ki..." adlı oçerkini "Müxbir" jurnalının 1983-cü ilin fevral buraxılışında (II say) dərc etdirmişdi. Və mən həmin yazını arxivimdə bu günədək qoruyub saxlayıram".* Elçin Mehrəliyevin bu qeydləri göstərir ki, bir çox hallarda xatirələr də həqiqətlərin üzərinə daha çox işıq sala bilir. Və bizə aydın olur ki, Ulduz Qasım kimi istedadlı gənclərin sözə gedən yolu bir qədər obrazlı desək, qırx qapıdan keçir. Hər halda Ulduz ilk gəncliyində sözün qapısınacan gəlib çata bilmişdi. Elçin Mehrəliyevin xatirələrindən də elə aydın olan odur ki, istedadlar fiziki və intellektual imkanlarını səfərbər edəndə odda yanmamaq, suda batmamaq gücü kəsb edirlər.

Şübhəsiz, Elçin Mehrəliyev kimi ustad bir sənətkarın, ədəbi mühitdə sözü olan nüfuzlu alimin diqqətini cəlb edən qeydləri xatırlaması bizi də qürurlandırır. Sonra o qeyd edir: *"Hörmətli Əli Rza müəllim, bir əhvalatı xatırlamaqla bir-iki məqama da diqqətinizi çəkmək istərdim. Əvvəla, Ulduz İmanova - Ulduz Qasım imzasına bir qədər də aydınlıq gətirmək istədim. Sizin yazdığınız kimi hər hansı bir yazıçının mükəmməl portreti onun yaradıcılığının ilk çağlarından başlayaraq formalaşır. Ulduz Xanım ədəbi mühitdə 80-ci illərin əvvəllərindən görünməyə başlamış və ilk yazılarından daha çox mənəviyyat-mövzu problemina maraq göstərmişdir. İkinci bir tərəfdən, Ulduz çanımın ilkin yaradıcılıq dövrü ilə bağlı xarakterik fakt kimi xatırladığım oçerkin foto-sürətini sizə göndərirəm. Güman edirəm ki, bu müəllifin özü üçün də maraqlı olacaqdır".* Əlbəttə, Elçin Mehrəliyevin xatırlatdığı fakt - foto-sürət Ulduzun gələcək tədqiqatçıları üçün də maraqlı mənbə-əsas ola bilər. Həqiqətən, nə qədər mükəmməl və əhatəli yazmağa, məlumat verməyə Ulduzun bədii düşüncəsini təhlilə çəkməyə çalışsaq da, gələcəyin tədqiqatçıları üçün onların ədəbi fakta yanaşma tərzindən asılı olaraq, çox məsələ qalır və gələcəyin həmin tədqiqatçıları üçün Ulduz Qasım təkrar-təkrar öyrəniləcək və hər dəfə yenidən ədəbi düşüncənin mərkəzinə gələcəkdir.

Məktub müəllifi öz qeydlərində düşüncəsinin alt qatındakı bir həqiqətə daha çox inanır. Ulduz Qasım səmimiyyəti ilə yazısında görünən sənətkardır. Bu və digər məqamları düşüncəsindən keçirən Elçin Mehrəliyev Ulduzun sənətkar obrazını müxtəsər də olsa, təqdim edə bilir: *"Başqa bir tərəfdən və ən əsası, demək istədim ki, hər hansı bir uğurlu əsər öz müəllifinin mənəvi kamilliyindən su içir, başqa sözlə, sənətçi hər hansı bir qəhrəmanının obrazını yaradarkən onu öz arzu və istəklərinin mühitə və hadisələrə münasibətinin, amal və idealının daşıyıcısına çevirir. Hesab edirəm ki, sizin ürək dolusu bəhs etdiyiniz Ulduz Qasım yaradıcılığını sevdirən səbəbi də burada - onun öz işıqlı "mən"ində axtarmaq lazımdır. Ulduzun özünün yazdığı kimi: "... onu əzəldən yazmaq qayğısı, duymaq, yaşamaq eşqi ovsunlayıb... O, kimin üçün və nə üçün yazdığını bilir... Onda yazmaq istəyi o qədər güclüdür ki, yazmasa, yaşaya bilməzdi...". Bütün bu ruhi, mənəvi keyfiyyətlər qayə-amal müqəddəsliyi isə kökə bağlılığından, milli əxlaq və tərbiyədən, vətənən vurğunluqdan boy verir. Əks təqdirdə, insan mənəviyyatı, milli faciələrimiz, Qarabağ mövzusu kimi ali mövzular Ulduz Qasım yaradıcılığının əsasını təşkil etməzdi. Ulduzu məhz həmin "ovsun", həmin məqsəd, həmin sevgi, həmin ideal maraqlı romanlar müəllifinə, görkəmli nasirə çevirə bilmişdir".* Beləliklə, sözün uca dəyərini, sözün söz olmaq meyarını yaxşı bilən tənqidçi Elçin Mehrəliyev Ulduz Qasımı görkəmli nasir adlandırmaqdan çəkinmir.

Ümumiyyətlə, hər bir yazıçı üçün, nəinki yazıçı üçün, lap elə publisist üçün, qəzet naşiri üçün zəhmətinin qiymətləndirilməsi, sözünün söz bilənlər tərəfindən uca tutulması hər kəsdə qürurlu duyğular yaradır. O, məktubun sonunda məhz düşüncəmizin bu məqamı ilə səsləşən fikirlərini də əsirgəmir: *"Sözümün sonunda bizi qürbətdə yaşayıb qəlbi vətən həsrəti ilə döyünən daha bir yazıçımızla. Onun yaradıcılığı ilə tanış edən, uzun illərin ayrılığından sonra aramızda körpü quran "Kredo"-ya, onun yorulmaz naşiri kimi şəxsən sizə minnətdarlığımı bildirirəm"* **("Kredo" qəzeti, № 26, (1106), 29 iyun 2022-ci il).** Məktubdan yazıda istifadə edərkən bəzi məqamlarda Elçin Mehrəliyevin şifahi redaktəsi ilə əlavələrini də yazıya gətirdik.

Hər hansı bir yazıçının yaradıcılığı üçün ilkin ədəbi-tənqidi qeydlər sarayın özül daşlarına daha çox bənzəyir. Bu mənada yazıçı Ulduz Qasımın haqqında yazılanların gələcək tədqiqatçılar üçün nə qədər dəyərli olduğunu təsəvvür etmək çətin deyil.

15.08.2022

V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

2. Xoşbəxt romana doğru

Məlumdur ki, Ulduz Qasımın canlı həyat romanları Qarabağın işğal tarixini bədii cəhətdən əks etdirən dəyərli nümunələrdir. Görünür, elə bu səbəbdən də onu Türkiyədə mötəbər müəllif kimi tanıyır, əsərlərini tutya kimi qarşılayırlar. Hər halda Ulduz Qasımın bir yazıçı kimi Türkiyədə görünməsi, tanınması, onun Turan mənəviyyatına ayaq açdığını təsdiqləyir.

Görkəmli türk nasiri İmdat Afşarın da Ulduz Qasımın böyük türk arenasındakı yerini göstərən qeydləri çox dəyərlidir.

İmdat Afşarın Azərbaycan ədəbi mühiti ilə kifayət qədər sıx əlaqəsi var. Bir çox yazıçılarımızın əsərlərinin Türkiyədə türk dilinə çevrilməsi və nəşri onun adı ilə bağlıdır. Şübhəsiz, bu da İmdat Afşarın Azərbaycan sevdasının səmimiyyətindən və köklülüyündən irəli gəlir. Onun Ulduz Qasımın yaradıcılığına münasibəti "Solmayan Nərgiz" romanının əvvəlində "ön söz" əvəzi kimi verilmiş məktubu da təsdiqləyir: *"Hörmətli Ulduz xanım, bu günlərdə sizin yenə Azərbaycanın, o cümlədən Türkiyənin və türk dünyasının qanayan yarası Qarabağ mövzusuna həsr etdiyiniz "Solmayan Nərgiz" adlı romanınızın yayımlandığını və yaxın zamanda bu kitabın təqdimatının olacağını öyrəndim. Həm yeni kitabınızın işıq üzü görməsinə, həm də 3 romanınızdan ikisini Qarabağ mövzusuna həsr etdiyinizə görə sizi ürəkdən təbrik edirəm. İnşallah digər iki romanınız kimi bu kitabınızı da Türkiyə türkcəsinə çevirib burada yayımlamaq qismət olar"*. Elə sözünün əvvəlindəcə qardaş Türkiyənin görkəmli yazarı Azərbaycana sevdalı münasibətini, əsasən də Qarabağ uğrunda mücadilədə öz yerini görməsi də əks olunur. Hətta belə anlaşılır ki, onun Ulduz Qasımın yaradıcılığına münasibətinin əsasında elə sənətkarın Qarabağ mövzusuna önəm verməsidir.

İmdat Afşar məhsuldar yazıçıdır. Özü yazmaqla, yaratmaqla bərabər türk ədəbi mühiti ilə birgə Azərbaycan yazarlarının əsərlərini də ardıcıl olaraq izləyir. Və şübhəsiz, Ulduz Qasımın yaradıcılığındakı həqiqətlərin bədii gücünü də görür. Zənnimcə, onun öz sözləri ilə düşüncələrini oxuculara çatdırmaq daha doğru olardı: *"Mən bəri başdan deyim ki, "Solmayan Nərgiz"i hələ ki oxumadım, amma sizin "Qürbət zöhrəsi" və "Xocalı şikəstəsi" kitablarınızın həm oxucusu, həm də tərcüməçisi olaraq yaradıcılığınız ilə yaxından tanışam. Həyatın bütün zorluqlarına rağmən ailəsi, yuvası və cocuqları üçün mücadilə edən; qürbət eldə min bir əziyyətlə qarşılaşmasına baxmayaraq, həyata tutunan və bu mücadiləsində də başarılı olan Azərbaycan qadınını anlatdığınız və gerçək həyat səhnələri ilə dolu "Qürbət zöhrəsi" təsirli bir romandır. Bu roman türk oxucuları tərəfindən də çox bəyənildi. Faqət bu günlərdə yenidən dünyanın gündəminə gələn və Azərbaycan ordusunun bu günlərdə uğrunda vətən mübarizəsi apardığı Qarabağ mövzusuna həsr edilmiş "Xocalı şikəstəsi" (türkcə İstanbul nəşrində "Xocalı fəryadı") romanınız Türkiyədə daha böyük maraqla qarşılandı. Çünki Qarabağ Azərbaycanın olduğu qədər Türkiyənin də məsələsidir. Siz "Xocalı şikəstəsi" ilə Qarabağda ermənilər tərəfindən edilən zülmü, vəhşəti, saldırqanlığı, qətliamı bir daha gözlər önünə gətirdiniz. Yenə bir azərbaycanlı ananın gerçək həyat hekayəsini anladan bu romanınızın bir filmə bənzər səhnələri hələ də gözlərimin önündədir. O ananın cocuqlarını qurtarmaq üçün qarların, buzların içindən keçərək salamat qaldığı səhnələri düşündükcə indi də içimdən bir ürpənti qopur. Millətlər arasındakı mücadilələr sadəcə əsgəri, ekonomik, siyasi mücadilələrdən ibarət deyildir. Siz "Xocalı şikəstəsi" ilə Azərbaycanın haqlı davasına ədəbiyyat vasitəsi ilə böyük bir güc vermisiniz"*. Bu məktubda qürurlu məqamlar var. Yazıçı İmdat Afşar səmimiyyətlə xəbərləyir ki, böyük Türkiyənin ziyalıları, çoxsaylı türk oxucusu Ulduz Qasımın əsərlərinin timsalında Qarabağ yanğılarını bütün dəhşətləri ilə görə biliblər. Milyonlarla Türkiyə vətəndaşının İkinci Qarabağ savaşı zamanı necə ayaq üstə olduğunu biz görürdük. Onlar İkinci Qarabağ savaşında mənəvi olaraq Azərbaycanla bir yerdə idilər. Demək, böyük Türkiyənin Azərbaycan sevərləri milli təəssübkeşlikdən başqa həm də Ulduz Qasım kimi yazıçıların əsərləri ilə səfərbər olunmuşdular. Xalq arasında belə bir söz var, deyirlər ki, qisas qiyamətə qalmaz. Yəni elə yaralar var ki, onun göynəmi heç vaxt bitmir. Elə yaralar var ki, onun üzü heç vaxt qaysaq bağlamır. Azərbaycanın dağılmış şəhərləri, sökülüb yerlə yeksan edilmiş abidələri türk mənəvi mühitinin bağrında sağalamayan yaraya çevrilmişdir. İndiki texniki imkanlar dövründə nəinki Türkiyə, bütün Turan və bəşər sivilizasiyasını qorumaq istəyən hər bir dünya vətəndaşı üçün Qarabağ xarabalıqlarını görmək unudulmayacaq ağrıların əsası olmuşdur. Və demək, *"Xocalı şikəstəsi"*, *"Qürbət zöhrəsi"* kimi əsərlər də Türkiyədə hansı söz bilən oxucunun əlinə düşübsə, həmin göynəmlərə sanki duz səpib.

İmdat Afşar məktubunda maraqlı məlumatlara da yer ayırır. Bu məlumatlardan öyrənirik ki, Türkiyənin rəsmi dairələrində də Ulduz Qasımın yaradıcılığına xüsusi diqqət var. İmdat Afşar məktubunda yazır: *"Sizə bir müjdəli xəbər də vermək istəyirəm. Sizin türkcəyə çevirərək yayımladığımız "Qürbət zöhrəsi" və "Xocalı fəryadı" adlı kitablarınız türk oxucusunun və bizim Kültür Bakanlığının diqqətlərindən də yayınmadı. Belə ki, Türkiyə Cümhuriyyətinin Kültür Bakanlığı 2002-ci ildə Türkiyənin böyük kitabxanaları üçün alacağı kitablar siyahısına sizin "Xocalı fəryadı" kitabınızı da daxil etmişdir. Kitabınız Kültür Bakanlığı tərəfindən 200 ədəd satın alınaraq Türkiyənin ən böyük 200 kitabxanasına göndərildi. Əmin ola bilərsiniz ki, türk oxucuları 100 illər keçsə də, sizin bu kitabınızı bizim kitabxanalarımızdan əldə edib oxuyacaq. Bir yazarı bundan daha mutlu edəcək nə ola bilər ki?"*. Əlbəttə, sual ritorikdir. Cavabı da bizə məlum olduğu kimi türk oxucusuna da kifayət qədər aydındır. Hər halda Ulduz Qasım adı çəkilən dəyərli əsərləri ilə artıq türk-Turan mənəviyyatının təqdir olunan yazıçı obrazlarından biridir.

İmdat Afşar özü demiş, müjdəli xəbərləri ilə təkcə Azərbaycan yazıçısı Ulduz Qasımı yox, onun söz bilən bütün oxucularını və bu qəbildən bizi də sevindirir. O öz məktubunda *"Solmayan Nərgiz"*i də tezliklə oxumaq niyyətində olduğunu çatdırır.

Məktubun sonu türk ziyalısı İmdat Afşarın Azərbaycan sevgisini əks edirən düşüncələri ilə bitir: *"Hər zaman Azərbaycanımızın haqlı davasında sizin yanınızda olduğumuzu; canımızla qanımızla bu davaya dəstək verəcəyimizi bildirirəm. Türkiyənin də dəstəyi ilə qəhrəman Azərbaycan ordusunun azad etdiyi mübarək Qarabağda görüşənə qədər! Yaşasın, Azərbaycan-Türkiyə qardaşlığı!"*. Nəhayət, imza gəlir: İmdat Afşar, Türkiyə, İstanbul. Bu imzanı oxuyanda mənə elə gəldi ki, türk yazarının alqışında Azərbaycanla Türkiyənin bir can olaraq eyni vaxtda *"Qarabağ Azərbaycandır"* səsini də eşidirəm. Bu gurlayan səs dalğasının yaratdığı böyük axının önündə Türkiyə ilə Azərbaycanı qovuşduran söz sahiblərinin sırasında Ulduz Qasım da öndə görünür.

* * *

Hər bir əsər mənəvi-psixoloji durumun sənətkarın həyəcanlarının bəhrəsi olaraq doğulur. Bir körpənin dünyaya gəlişini necə həyəcanla qarşılayırıqsa, yeni bir əsərin ruhumuza, varlığımıza gəlişini də eləcə sonsuz həyəcanlarla, hisslərlə qarşılayırıq.

Söz sahibləri yaxşı bilirlər ki, yanan yazıçı varlığından süzülüb gələn düşüncələrlə müşayiət olunan əsərlər söz bilənlərin varlığına tez yol tapır. Demək, hər bir ilk oxucunun varlığında görünən işıq günəşin doğuşu ilə aləmə gələn aydınlığa çox bənzəyir. Yazıçı-publisist Rəhilə Gülgünün *"Solmayan Nərgiz"* romanı üzərində ilkin düşüncələri də günəşin doğuşunu qarşılayan canlı aləmin, əlbəttə, böyük hərflə yazılan insanın qəlbindən keçən duyğularla müqayisə etmək olar. Əsəri əlyazmadan oxumaq, ilk oxucu olmaq xoşbəxtliyi söz bilənlər üçün böyük dəyərdir.

Rəhilə Gülgün *"Solmayan Nərgiz"* romanının hələ əlyazma nüsxəsinin oxucusu olub. Bu da təsadüfi deyil. Rəhilə Gülgünün özü və ailəsi ilə Ulduz Qasımın ailəsi arasında çox uzaq zamandan bəri yol gələn dostluq tarixi var. Ulduz Qasımın yaradıcılıq tədbirlərində, əsərlərinin təqdimatında, bir sözlə, qürbətdə yaşayan yazıçının Azərbaycanda ictimailəşməsində Rəhilə Gülgünün də xüsusi xidmətləri diqqətə layiqdir. Bir var əsəri oxumaq, əsəri başa düşmək, bir də var həm əsəri, həm də müəllifi birgə qavramaq, birgə başa düşmək. Mənə elə gəlir ki, Rəhilə Gülgün təkcə Ulduz Qasımın əsərinin deyil, elə onun özünün də dünyasını yaxşı başa düşür.

Rəhilə Gülgünün *"Xoşbəxt roman"* adlandırdığı ilk qeydləri iki cəhətdən diqqətimi cəlb etdi.

Birincisi, Rəhilə Gülgün əsəri oxuyub-qurtaran kimi varlığında baş qaldıran duyğuları sözə gətirir. Psixoloqlar üçün də maraqlı olar. İnsan yeni bir aləmə düşəndə hansı hissləri keçirir. O, necə həyəcanlanır? Özünün əvvəlki, sakit düşüncə axarına qayıdanacan hansı duyğu dağlarının ləpədöyənini müşahidə edir? Bunu Rəhilə Gülgünün qeydlərinin əvvəlindəcə aydın hiss etmək olar: *"Otuz ildən artıq bir müddətdə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yaşayan, əslən isə bu günlərdə düşmən tapdağından təmizlənən Cəbrayıl rayonundan olan Azərbaycan yazıçısı Ulduz Qasım özünün Qarabağdan bəhs edən yeni romanını nəşrə hazırlamışdır. Elə indicə qulağı səsdə, gözü ekranda, yəni cəbhədən gələn xəbərlərin qəhər qarışıq sevinci altında (hamı kimi!) Ulduz xanımın son cümlələri ümid nuruna bələnmiş yeni əsərini oxuyub başa vurdum və bəlkə də onu ilk oxuyanlardan biriyəm. Bu qısa təqdimatın əsər barədə ilk rəy olduğu isə şübhəsizdir. Bu səbəbdən qısaca olaraq qeyd edim ki, mövzu, hadisə, süjet, bir sözlə, bəlli bir zaman və məkan daxilində təqdim olunan həyat həqiqəti və bədii ifadənin nail olunmuş səviyyəsi kifayət qədər təsirli, eyni zamanda unudulmazdır"*. Müəllif ilkin düşüncə qənaətləri kimi çox səmimidir. Bu qeydlərində yazıçının özünüifadə imkanına da işarə edir. Ümumiyyətlə, lap çoxlu əsər yazan müəlliflər var ki, yazdıqları ilə özünüifadə etmək gücünü göstərə bilmirlər. Amma təkcə bir əsəri ilə də özünüifadə imkanını göstərənləri dünya ədəbiyyatında kifayət qədər sıralamaq olar. Azərbaycana aid bir faktı yada salmaq yerinə düşərdi. Bu, Yusif Səmədoğlu romanının *"Qətl günü"* romanıdır. Hətta Yusif Səmədoğlunun hər hansı bir yazı nümunəsi olmasaydı belə, yenə *"Qətl günü"* romanı onu dünya ədəbiyyatının ən dəyərli simaları sırasında göstərə biləcəkdi.

Rəhilə Gülgün *"Solmayan Nərgiz"* əsərini xoşbəxt roman adlandırır. Bu da mənim onun kiçik qeydlərində diqqətimi çəkən ikinci məqamdır.

Rəhilə Gülgün hansı cəhətinə görə əsəri xoşbəxt roman adlandırır? Əlbəttə, kiçikhəcmli qeydlər sırasında müəllifin qənaətini *"Xoşbəxt roman"* nəticəsinə gətirən düşüncələrin hamısını vermək çətin olardı. Amma hər halda kiçik bir parçanın içərisində belə Rəhilə Gülgün əsər haqqında dediyi *"xoşbəxt roman"* qənaətini əsaslandıra bilir: *"Roman "Solmayan Nərgiz" adlanır. Bu "Qürbət zöhrəsi", "Xocalı şikəstəsi" əsərlərindən sonra (hər iki roman Bakı ilə yanaşı, istedadlı türkiyəli yazar İmdat Avfşarın çevirməsində İstanbulda da işıq üzü görmüşdür), qürbətdə yaşasa da qəlbi daim vətənlə birgə çırpınan yazıçının özünün dediyi kimi, müqəddəs mövzuda qələmə aldığı üçüncü irihəcmli yazıdır. Amansız düşmənin təcavüzündən inanılmaz əziyyət çəkən, yurdu zorla əlindən alınan, ən ekstremal vəziyyətlərdə belə fərdi, milli, tarixi ləyaqətini qorumağı bacarmış insanlardan danışan "Solmayan Nərgiz"ə, məncə, xoşbəxt roman deyilə bilər. Çünki əsər küllü-Qarabağın, o sıradan Cəbrayılın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz tərəfindən azad olunduğu günlərdə işıq üzü görür. Canından artıq sevdiyi Cəbrayılın 30 ildən sonra azadlığa qovuşması və qələmə aldığı yeni roman münasibəti ilə Ulduz Qasımı təbrik edirəm"*. Şübhəsiz, yazıçı-publisist, *"Loqos"* jurnalının baş redaktoru Rəhilə Gülgünün ədəbi hökmünü əsərin oxu taleyi daha qətiyyətlə təsdiq edəcək. Yəni bir yazıçının çox səmimiyyətlə verdiyi ən yüksək dəyər belə oxucu diqqətindən oxucu qənaətlərinin sınaqlarından keçməlidir. Yəqin ki, bundan sonra, bir az dəqiqləşdirsək, oxucu imtahanından keçən əsərin gələcək yaşam yolunu müşahidə edən söz sahibləri *"xoşbəxt roman"* epitetinin müəllifini də mütləq xatırlayacaqlar.

Hər bir əsər kütləvi oxucuya çatana qədər müəyyən yol keçir. Öz əlyazmasını oxumağa hövsələsi çatan müəllifin oxusundan keçir. Sonra redaktorun, əlbəttə, sözə can yandıran redaktorun sınaqlarından ötməli olur. Əgər əsər bu mərhələdən də uğurla keçirsə, korrektorun hücumlarına məruz qalır. Beləliklə, sanki çətin dağ cığırı ilə zirvəyə qalxan səyyahın məruz qaldığı çətinliklərin hamısına tab gətirməli olur. Dizi qanayır, əli-üzü cızılır, amma inad yolçunu yoldan saxlayan maneələrin hamısına qalib gəlir.

Beləcə, əsər yüksək dəyərli etirafla müşayiət oluna-oluna bəxtinin qapısına çatır. Zənnimcə, *"Solmayan Nərgiz"* romanının geniş oxucu arenasına çıxması üçün hər cür üstünlük tərəfləri var. Hər halda ilkin müşahideçilərin qeydləri də göstərir ki, Azərbaycan nəsrinin çox dəyərli nümunələrindən biri yaşarı əsər haqqını qazanıb.

12.08.2022

V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

3. "İşıq yaradan sızar"

"Solmayan Nərgiz" romanının oxucu düşüncəsində yer eləyib, yaddaşda qalan məziyyətləri çoxdur; insanların tarixi sınaq qarşısında qalması, iradələrin dözümü və yaxud dözümsüzlüyü, insan gücünün təntənəsi və eyni zamanda ayrı-ayrı fərdlərdə təzahür edən zəiflik, ən başlıcası, insan münasibətlərinin ağır sınaqlara çəkilməsi... kimi məqamlar *"Solmayan Nərgiz"* əsərini canlı roman kimi həyatımızın mənzərəsinə çevirir.

Baxmayaraq ki, əsər otuz il bundan əvvəlki zamanın təzadlı rənglərini göstərir, amma yenə də otuz il əvvəl baş verən hadisələrin yaraya çevrilmiş faciənə görüntüləri zamanımızda da yaşayır. Az qala bir milyona qədər insan Qarabağın işğaldan azad olunmasına baxmayaraq, öz yerini, yurdunu ziyarət edə bilmir. Əlbəttə, yenə də barbarlıq əməlləri ilə Qarabağda izini qoymuş düşmənin izlərlə davam edən fəsadları da az problem yaratmır. Ərazilər minalanıb, yaşayış üçün nəinki evlər məhv edilib, hətta təbiətin də altı üstünə çevrilib. Meşələr yandırılıb, münbit torpaqlar minalandığından faydalı işlər görmək mümkün deyil. Bağbağatın heç izi də yoxdur.

Müəllif *"Solmayan Nərgiz"* romanını vətənin dərd zirvəsindən başlayır. Problemin ən göynəm məqamını yada salmaqla oxucusunun ruhunu səfərbər edir, heç də onu bestseller, əyləndirici bir romanın gözləmədiyini xəbərləyir. Əsərin Mövlanə Cəlaləddin Rumidən gələn və bizim yarımbaşlıq üçün seçdiyimiz *"İşıq yaradan sızar"* epiqrafı ilə başlaması da təsadüfi deyil. Mövlanə Cəlaləddin Ruminin *"İşıq yaradan sızar"* deyimində hansı mənalar tirajlanır?

Əvvəla, insan təbiətən belə bir məxluqdur ki, öz gözləri ilə gördüyü hadisənin mahiyyətinə daha çox varır, nəinki özündən əvvəlki həyatı yaşamış olanların təcrübəsindən faydalanmaqdan... Həqiqətən, göynəyən yara insanın düşüncəsini səfərbər edir. Onun nə üçün göynəyən yara daşıdığına diqqəti yönəldir. Və şübhəsiz, göynəmlərin arxasınca insan düşünür və bu göynəmdən yaxasını qurtarmaq üçün çıxış yolu da axtarmalı olur. Həmin çıxış yolunu görkəmli filosof məhz işıq adlandırır.

İnsan nə qədərki çıxış yolu haqqında düşünmür, demək, o qaranlıqdadır. Görünür, müəllif Ulduz Qasım Azərbaycan xalqının məruz qaldığı ən dəhşətli göynəmli yaranın açıq mənzərəsini verməyi qarşısına məqsəd qoyub və çıxış yolu axtarmağı bu dəhşətli mənzərəni gözləri önündə görən insanların öz ixtiyarına buraxır.

Əsər 8 fəsildən və epiloqdan ibarətdir. Birinci fəsil, müəllifin tarixi hadisələrin müşahidəsinin nəticəsi kimi gəldiyi qənaətin qısa tezisi ilə başlayır: *"Barbar xalqlar (təəssüf ki, idbar toplumlar hələ də var) insan üçün vətənin nə qədər müqəddəs olduğunu heç olmasa bircə an düşünə bilsələr, yer üzündə işğalçılıq deyilən cinayətin izi-tozu qalmaz"*. Müəllifin bu düşüncələrinin və həm də tarixi mahiyyət daşıyan düşüncələrinin xüsusi bəşəri dəyəri var.

Tarixən insanların ən müxtəlif səbəblərdən yerdəyişmələri, qlobal köçləri baş verib. Bu yerdəyişmələr və köçlər ən çox qəsbkarların qətl və qarət niyyətlərinin qurbanı olmamaq istəyindən yaranıb. Doğrudur, daha firavan həyat naminə, bir sözlə, cənnət axtarışı ilə də köçlər baş verib. Almanların bir vaxtlar Qafqaza, o cümlədən Azərbaycana köçləri, Malakanların Rusiyadan Azərbaycana köçləri... Belə köçlərin sırasını artırmaq olar, bunlar cənnət axtarışının nəticəsi olaraq baş verən köçlərdir. Amma repressiya müxtəlif siyasi məqsədlər naminə bütöv etnosları sürgün eləmək məqsədi ilə köç fitvasının verilməsi də qeyri-insani düşüncənin nəticəsidir. Ancaq Ulduz Qasımı dəqiq və aydın qənaətə gətirən barbar xalqların işğalçılıq, qətl və qarət niyyətləridir.

Azərbaycan xalqı belə bir acı taleyi XX əsrin son onilliyində yaşamalı oldu. Hələ 1988-ci ildən Ermənistandan başlayan deportasiya çox azğın qəddarlıq, kütləvi insan qırğınları ilə müşayiət olunurdu. Sonra Xocalı hadisəsi, daha sonra Dağlıq Qarabağ adlanan qeyri-qanuni qurumun ərazisindən çıxarılan azərbaycanlılar hansı fəlakətlərə məruz qalmadı ki? Və nəhayət, Dağlıq Qarabağla sərhəd rayonlarının ərazilərinin işğalı və bu işğalın bəşəri cinayətlərlə müşayiət olunması Qarabağ adlanan böyük ərazinin yerli sakinlərdən təmizlənməsi mərhələsi ilə başa çatdı.

Bunlar böyük tarixi hadisənin, yüz minlərlə insanın məcburiyyət qarşısında yer dəyişməsi, bütün maddi imkanlarından əl çəkərək canlarını qurtarmaq üçün Azərbaycanın içərilərinə doğru başıpozuq kütlə şəklində çəkilməli oldu. Müəllif əsərinin faciələrlə dolu mənzərəsini əsərin əvvəlində ümumiləşmiş qeydlərlə diqqətə çəkir: *"Sakinlərin ölüm-dirim savaşına atılmaqlarına baxmayaraq rayonun yuxarı dağ kəndləri və o meşəliyalçın dağların əl-ətəyində binələnən rayon mərkəzi, yəni Cəbrayıl şəhəri düşmənə təslim edilmişdi. Elə bu səbəbdən də Arazboyu kəndlərin qara günləri başlamışdı. Yerli əhalinin quduzların həmləsinə pis-yaxşı sinə gərdiyi bir məqamda yuxarıdan - Bakıdan əmr gəlmişdi ki, kəndlər boşaldılsın. Qondarma nazirlərin, vətən düşmənlərinin, qeyrətsizlərin, dünyada hər şeyi sərvətlə ölçüb, cırıq-curuq pul qədər belə qiyməti olmayanların korafəhmliyi üzündən Qarabağ əldən çıxırdı, qonşu rayonlar da torpaqlarını tərk etmişdilər. Cəbrayıl xirtdəyə dirənən bıçaq kimiydi. Çünki Laçın, Şuşa, Xankəndi, Qubadlı, Zəngilan tapdaq altındaydı. Külli Qarabağda havayı qurbanların, döyüşən şəhidlərin ruhu sızlayırdı. Camaat təklənmişdi, o, rəhbərsiz və əliyalın idi. Mərcanlı, Mehdili, Çaxırlı, Çocuq Mərcanlı... saatbasaat boşalırdı. Dərəəğzı deyilən yerdə atılan top, qranat partlayışları vahimə yaradırdı. Millətin damarlarından qara qanlar axırdı. Hamının bircə düşüncəsi vardı: min illik dədəbaba yurdunu, bu boyda cəziraní dərənin çaqqallarına təslimmi edək, yaxşı, bəs evimizin içindən qovuluruqsa, hara gedək, kimə sığınaq?"*. Doğrudur, baş verən xaosun əsas səbəbini müəllif daha yuxarılarda görür. Və istər-istəməz həmin günlərin siyasi xronikası da gözlərimiz önündə canlanır.

Bakı Azərbaycanın beyin mərkəzidir. O vaxt qüvvələrin vahid mərkəzə tabe olmaması, müharibə zamanında həm də Ali Baş Komandan olan Prezidentin xəbərsiz-ətərsiz paytaxtı tərk etməsi, əlində hərbi güc cəmləmiş insanların hakimiyyət iddiaları, hərbi qiyamlar hansısa təxribatçı əmirlərin kimdən və necə gəlməsinin aydın olmaması... bütün bunlar böyük işğalın təkzibolunmaz səbəbləri sırasındadır.

Danılmaz faktdır ki, o vaxt Azərbaycan dövlətçiliyi də təhlükə qarşısındaydı. Cənubda seperatçılar cəbhədən qüvvələrini çəkib ərazi idddiası ilə mövqelər qurmuşdular. Şimaldan da sadvalçılar az təhdid göstərmirdi. Belə bir vəziyyətdə xalq çıxış yolunu Heydər Əliyevin hakimiyyətə gəlməsində axtarmalı oldu. Bəli, işıq artıq yaradan sızmaqda idi. Bütün bu baş verən hadisələr müəyyən siyasi iddiaların nəticəsi olaraq daha çox görünürdü, ancaq onun fəsadları yerlərdə insanların faciələri kimi təzahür etməkdə idi.

Həmin 93-cü ilin avqust günlərində Cəbrayıl da belə bir qanlı-qırğınlı hadisələrin ünvanına çevrilmişdi. Proses qarşısıalınmaz hal almışdı. Azərbaycan xalqının bu münasibətlərini müəllif əsasən bir ailənin timsalında verməyə çalışır. Ancaq hadisənin qlobal mahiyyəti çox böyük ərazini əhatə etdiyindən istər-istəməz biz hadisələrin şaxələnməsini, hətta bir-biri ilə yaxın tanış olmayan ailələrin faciəli talelərinə doğru aparan prosesi də görürük. Cəbrayılın Mehdili kəndindən olan Fəzli kişi və onun ailəsi terror qurbanlarının ümumiləşmiş obrazı baxımından çox maraqlıdır.

Fəzli kişi müdrikdir. Hətta bu qarğaşalıq içərisində də o, təmkinini itirmir. Sakit davranışı ilə insanları düzgün qərara, ağıllı hərəkətə sövq edir. Hətta kəndin boşaldığı, insanların şivən-qışqırıq içərisində yerini, yurdunu tərk etdiyi məqamda belə yır-yığışında təmkinini pozmur, hətta arvadı ilə mübahisəyə də vaxtı çatır. Fəzli kişi başa düşür ki, bu xına o xınadan deyil, yəni hökm artıq zamanındır və onlar yerini, yurdunu tərk etməlidir. Ev-eşiyindən heç nəyi götürə bilməsə də, arvadını, qızını da Araz qırağına yola salır. Az-çox həyətdə olan mal-davarını qabağına qatır. Məlumdur ki, o dövrdə Horadiz yolu erməni vandalları tərəfindən kəsilmişdi. İnsanların yeganə çıxış yolu özünü Araza atmaqla xilas ümidinə qovuşmaq ola bilərdi. Müəllif hələ çaydan keçməmiş insanların Araz qırağındakı qarğaşasını, demək olar ki, real cizgilərlə verir: *"Araz qırağını köçkün ordusu tutub. Səs-küydən, ah-nalədən qulaq batır. Elə bil Ağcabədinin mal bazarıdır. Fərq bircə ondadır ki, orada mal-heyvan, burada insan taleləri hərraca qoyulub. Onlar el-obadan o qədər də aralı olmayan bu yerlərə nə müsibətlə gəlib yetişə bilmişdilər, İlahi?! Atı, ulağı qorxu içində dəhmərləyə-dəhmərləyə, kələsərlərin arasıyla, uzunsov qanovlarda sürünə-sürünə, daş-qalağın, kol topaları dalında gizlənə-gizlənə və bütün hallarda sonsuz bir ağrı və kədər içində doğma ocağı tərk etmişdilər"*. Onsuz da vahid idarəetmə, planlı köç söhbəti yox idi. Burada hər kəsin xilası öz bacarığından asılı idi. İnsanların su ilə savaşı da ölüm-dirimə çevrilmişdi. Burada iki gəncin obrazı daha çox diqqəti cəlb edir. Hikmət və Rəcəbin simasında biz sanki toplumun içərisindən çıxan və hər cür vəziyyətdə ölümə hazır olan Azərbaycan oğullarının hünərini görürük. İnsanlar Hikmətin traktorla köməyini Allahın əli kimi görür, onu yeganə xilaskar kimi hər tərəfdən səsləyirlər.

Onu da deyim ki, Hikmətin və eləcə də Rəcəbin Arazdan insanların keçirilməsi naminə çalışmaları sözün həqiqi mənasında fədakarlıq nümunəsidir. Burada yuxarı kəndlərin birindən olan bir şəhid anasının yeganə oğlunun suda boğulması səhnəsi də sözün həqiqi mənasında ürəkdağlayıcı bir mənzərədir.

Ümumiyyətlə, müharibə, xalqların bu cür ölüm qorxusu altında yerdəyişməsi insanların təbiətində qeyri-adi dərəcədə sarsıdıcı izlər buraxır. Bu yerdə biz Fəzli kişinin qızı Zeynəbin taleyini unuda bilmərik. Zeynəb Araz qırağına çatanda başa düşür ki, onun əlyazmaları, şeirləri hekayələri evdə qalıb. Çox çətinliklə anasından izn alıb geriyə qayıdır. Və bu vaxt artıq silahlı düşmənin onların həyətində olduğunu görür. Vahimə demək olar ki, onun şüurunu əlindən almışdı. O, instiktlə hərəkət edirdi. Düşmənin əlinə keçməməsi üçün Saymaz adlı itlərinin köməyi ilə təzədən Araz qırağına qayıdır. Bu mənzərinin özü də çox maraqlı detallarla yadda qalır. Sanki it də böyük təhlükəni görür və sahibinin qızına həmin anlarda yardımçı olur. Fəzlinin, Pərinin, yəni ata-ananın Zeynəbin qayıtmasına qədərki iztirabları insanın düçar ola biləcəyi mənəvi gərginliyin son həddi qədərində təsvir olunur. Çayı ölüm-zülümlə keçmiş insanların Arazın cənub sahilində toplaşdığı mənzərə tarixin ən utancverici səhifələrindən biri kimi məhz *"Solmayan Nərgiz"* romanının təsvirləri ilə yaddə qalacaq. Bir ananın yeganə ümidi olan suda boğulan oğlu elə buradaca dəfn edirlər. Beləcə bir şəhid məzarı da Araz qırağında dəhşətli hadisənin şahidi kimi gələcək nəsillərə tarixin bu dönəmi haqqında səssiz hekayətlər danışacaq.

Burada bir qazan əhvalatı da unudulmaz bir mənzərənin epizdou kimi yaddan çıxmır. Bir yaşlı qadın kanalda öz qazanını yuyurmuş. Birdən hadisələr dəyişir. Xaotik qarışıqlıqda qara qışqırıq içərisində insanların Araza doğru axdığını görür və onun da artıq geriyə dönmək imkanı qalmır. Elə əlində qazan özünü Araza çatdırır. Arazın cənub tərəfində Fəzli kişi düşmənin əlindən qoparıb gətirdiyi cöngələrindən birini kəsir. Buraya yığışan insanların hamısına pay verilir və həmin qazan burada kara gəlir. Yemək məhz həmin qazanda bişirilir. Ancaq iş bununla bitmir. Hətta paltarları da həmin qazanda yumalı olurlar. Bütün bunlar elə detallardır ki, əsərin həmin səhifələrinə xüsusi bir can, nəfəs verir və biz elə bu nəfəslərlə əsəri canlı roman adlandırırıq.

Araz qırağında bir neçə gün (əsərdə bir həftə göstərilir) də bəs edir ki, kimin kimliyi daha aydın görünsün. Bütün həyat, güzəran imkanları əlindən alınmış insanlar Arazın cənub sahilində köməksiz qalırlar. Uşaqlar xəstələnir, qocalar haldan düşür, oğlu itkin düşənlər, doğmalarından əli üzülənlər, bir sözlə, faciə ilə üzləşmiş insanlar ümidlərini sanki Allaha bağlayırlar. Burada da Fəzli kişinin təmkini, ağsaqqallığı, ümidlərin qırılmaması üçün verdiyi təskinliklər sanki həyat işığına çevrilir - qaranlıqlardan süzülən həyat işığına.

Arazın cənub sahilindəki bir kəndin timsalında azərbaycanlıların yaşadığı dəhşətlər yeni faciələr dövrünün birinci mərhələsi kimi sona çatır. Bu insanları qarşıda nə gözləyir? Həyat onları daha hansı sınaqlara məruz qoyacaq? İtkin düşənlərin taleyi necə olacaq? - bu barədə növbəti fəsildə...

15.08.2022

V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

4. Gücün sarsılmayan obrazları

"Solmayan nərgiz" romanının ən canlı səhnələrindən biri də əsirlik həyatının təsviridir. Ayrıca götürülsəydi romanın Əhməd, Nərgiz və Məhərrəm kişi obrazlarını əhatə edən əsirlik həyatı elə ayrıca bir roman kimi təsəvvür də oluna bilərdi. İndi onun dəxli yoxdur, araya çıxan yazı məhsulunu istəyirsən roman adlandır, istəyirsən povest, hər halda insan həyatının ən nadir səhnələrini özündə ehtiva edən bədii bir salnamədir.

Romanın bu hissəsində vəfat etmiş Şamilin, yeganə anası Nübarın övladı Əhmədin əsirlik həyatından bəhs edilir və təkcə onun həyatından yox, eləcə də Araz qırağı kəndlərin birindən ata-anasını itirmiş bir qızın - Nərgizin də əsirlik həyatı Əhmədin taleyi ilə qovuşaraq bir kino-salnamə yaradır.

Əhmədin əsir düşmə məqamı, Nərgizin ümumi köçdən ayrı düşərək ermənilərin əlinə keçməsi və onlarla birgə Məhərrəm kişinin də əsir düşməsi - müxtəlif zümrədən, müxtəlif yaşdan olan insanların ermənilərin girinə keçməsi hadisəsi göstərir ki, Azərbaycanda erməni vandallarının işğalı ilə əlaqədar bu tipli hadisələrin heç də nadir olmadığı bəllənir. Demək, Kəlbəcərdə də, Laçında da, Zəngilanda da və ümumiyyətlə, işğal olunan digər ərazilərdə də bu tipli hadisələrin bənzəri çoxdur. Axır nəticədə insanlar Ulduz Qasımın təsvirləri əsasında demək, işğal motivinin daha eybəcər, daha qəddar üzünü də görməli olurlar.

Ulduz Qasım üçün həyat materialı əsas ifşaedici sənət kimi onun əlində vasitədir. Yazıçı sadəcə "erməni vəhşidir, erməni quldurdur, erməni insan qanına susayandır" demir. O, hadisələrin əsas axarını yazıya gətirərək ermənilyin mahiyyətini açır.

Əsərin ikinci hissəsində Əhmədin ermənilərin girinə keçməsi hadisəsi göstərilir: *"Acı xəbər isə bundan ibarət idi ki, Şamilin oğlu itkin düşmüşdü. Adamlar lap çaşıb qalmışdılar. Necə oldu ki, hamı gəlib Arazın kənarına çatdı, o, itdi. Əhmədi çayın kənarında gördüyünü kimsə xatırlamırdı. Çünki hamının başı öz dərdinə qarışmışdı. Necə deyərlər, öz adları da yadlarından çıxmışdı. Camaat hardan biləydi ki, Əhməd heyvanları örüşdən gətirəndə ermənilərə tuş gəlib. Türkcə erməni ləhcəsilə danışan iki erməni onun qarşısını kəsib tüfənglə hədələmişdi. Heyvanları geri qaytarmağı əmr etmişdi. Qaçmaq istəyən gənci xeyli döydükdən sonra istədiklərinə nail olmuşdular. Mal-qaranı geri döndərən oğlan orda başqa kənddən olan bir azərbaycanlıyla rastlaşmışdı. Əvvəlcə onu erməni zənn edən Əhməd sonradan məsələni anlamışdı və soruşmuşdu: - Əmi, siz niyə bunların yanındasınız? Siz də heyvanlarınızı verdiniz bu aclara? Məhərrəm, yaşlı kişi vaysınmışdı: - Oğlumu əsir alıblar, bala, hara soxublar, bilmirəm. Dedilər, sözümüzə qulaq assan oğlunu qaytaracağıq, guya yerini bilirlər. Allah bunların evini yıxsın, oğul, biz də mal-qaramızı gətirirdik. Mən aşağıdaydım. Bilirsən, bizim kənd dağlıqdır. İşimiz-gücümüz maldarlıqdır. Sadə adamlarıq, istədik heyvanları qurtaraq heç olmasa, hər şeyimizi itirdik. Ancaq görürsən dayna, nə baş verdi? Mən də dedim daha itirəcək heç nəyim qalmayıb torpaqlarımız gedəndən sonra. Barı görüm yeganə balamı qurtara bilirəm bu zalımların əlindən"* Bu, bir canlı səhnədir. Yüzlərlə, bəlkə də minlərlə azərbaycanlının - qarabağlının erməni əsirliyinə düşməsinin anatomiyasını göstərən bir məqamdır.

Bu gün də beynəlxalq insan hüquqları təşkilatlarına ünvanlanan suallarda minlərlə azərbaycanlının məlum olmayan taleyi haqqında cavab istənilir. Və cavab Ulduz Qasımın "Solmayan nərgiz" romanının ikinci hissəsində bütün aydınlığı ilə görünür. Biri təsadüfən, hadisələrdən xəbərsiz, haradansa gələndə əsir düşür, digər təsərrüfat işləri görərkən sahədə yaxalanır və əsir düşür, bir başqası evində, yatdığı yerdə əsir düşür, tamam başqası heç hadisələrdən başı çıxmayan, bəlkə də ruhi xəstədir deyə əsir düşür. Bu, erməni vandallığının mahiyyətini göstərən amildir. Qısası, söhbət ondan gedir ki, ermənilər insani simalarını itirdiklərinə görə, hətta silahsız insanları belə əsir alaraq (girov götürməkdən söhbət getmir) onlara olmazın əzablar verir, onları cismani cəzalara məruz qoyur; hər üzünə çalışırlar ki, azərbaycanlı adlanan hər hansı bir kimsəni alçaldığı vəziyyətə salsınlar. Hətta onları heysiyyətlərini itirəcək dərəcədə təhqir etsinlər.

"Solmayan nərgiz" romanında əsirlik həyatını yaşayan üç insanın tale birliyindən söhbət açılır. Arazqırağı kəndin sakini Məhərrəm kişinin əsir düşməsində əsas amil odur ki, o, oğlunu itirib. Və oğlunu tapmaq üçün ermənilərin artıq işğal etdiyi əraziyə daxil olur, onlarla dil tapmağa çalışır. Ermənilər isə oğlunu axtaran və oğlu üçün hər cür fədakarlığa hazır olan bu kişinin yerli bələdçiliyindən və onun imkanlarından istifadə edirlər. Ona deyirlər ki, əgər verilən tapşırıqlara düzgün əməl etsə, oğlu Bəxtiyarı ona qaytararlar. Əslində, hadisələrin sonrakı gedişindən məlum olur ki, ermənilərin Bəxtiyarın harada olmasından xəbərləri belə yoxdur. Amma onlar Məhərrəm kişinin oğul istəyindən istifadə edərək onu öz məqsədlərinə tabe etməyə çalışırlar. Və bu məqamda Məhərrəm kişi əsir düşən iki yeniyetmə ilə də üzləşir. Bunlardan biri Mehdilidən olan Əhməddir, digəri yaxın kəndlərin birindən ata və anasını itirmiş Nərgizdir. Doğrudur, biz bu barədə əvvəlcə məlumat verdik. Amma indi hadisələrin gedişini, əhatə dairəsini anlatmaq baxımından bu gənclərin əsirlik həyatını göstərən səhifələrini çevirməyin də məqamı gəlib.

Bu hissədə əsas aparıcı qüvvə kimi Məhərrəm kişi obrazı öndə görünür. O, vəziyyəti düzgün qiymətləndirir. Ermənilərin əsirlərə münasibətinin mahiyyətini yaxşı bilir. Əgər hər hansı bir əsirin etirazı olarsa, onlar həmin andaca tətiyə əl atmağa hazırdırlar. Ona görə də Məhərrəm kişi gəncləri psixoloji cəhətdən bu məqama hazırlamaqda əvəzsiz xidmət göstərir.

Məhərrəm kişinin nəsihətləri, düşüncələri kifayət qədər əsaslıdır. Əgər silahlı adamların və insan qanına susamış olanların arasındasansa, gərək vəziyyətə uyğun hərəkət edəsən.

Hər halda Əhmədin və Nərgizin salamat qalmağında Məhərrəm kişinin məsləhətinin az əhəmiyyəti olmur. Onu da demək lazımdır ki, Nərgiz öz iradəsi və inadı ilə axıracan yarı yaşını keçmiş və şəhvət ehtiraslarını asanlıqla reallaşdırmaq gücündə olmayan Sərkisə məhz elə inadları ilə qalib gəlir, onu özündən aralaya bilir. Sərkis isə əsərdəki təsvirlərdəki anlaşıldığı kimi, onu gələcək imkanlarına görə hələ ki, məhv etmir, öldürmür. Və buradaca Sərkis obrazına da diqqət etməyin yeridir. O, təbiət etibarı ilə yırtıcıdır, qənimətçidir. Azərbaycanlılara qarşı sonsuz nifrət bəsləyir. Və onu da demək lazımdır ki, o, heç də özününkü adlananlara da hörmətli münasibət bəsləmir. Onun üçün fərqi yoxdur, insan sadəcə alətdir. Bu alət azərbaycanlı olsun, ya erməni. Elə təsadüfi deyil ki, onun qərargah kimi istifadə etdiyi Hayquşun (onun əvvəlki adı Humay olub, bir tərəfi azərbaycanlıdır) evi burada mühafizəçi timsalında saxladığı Qarikin və ümumiyyətlə, digərlərinin hər hansı birinə münasibəti göstərir ki, bu erməni komandirinə, əslində, müqəddəs olan heç nə yoxdur. O, yalnız bircə ideal tanıyır; daha çox qəsb etmək, daha çox yığmaq, daha çox azərbaycanlı öldürmək... yəni qeyri-insani nə varsa,... törədə bilirsə, bu, onun üçün qəhrəmanlıq hissləri yaradır.

Hədsiz imkanları və silahla olsa belə, gücü olan Sərkisin də gücsüz olduğu məqamlar var. O, özünün mühafizəçisi Qarikə də qalib gələ bilmir, hətta cansız, cəsədsiz 15 yaşlı gəncə də qalib gələ bilmir. Son nəticədə onun mühafizəçisi Qarik də, elə özü də on yeddi yaşlı Əhmədin önündə ölümlə üzləşir.

Həyat göstərir ki, belə hadisələr nadir deyil. İnsan hardasa, hətta cismən gücsüz və zəif olsa belə, haqlıdırsa, orada hər hansı bir fiziki gücə qalib gəlir. Şübhəsiz, müəllifin Hayquş (Humay) obrazına da münasibəti mübahisəsiz ötüşməz. Hər halda Əhmədin iki güclü, fəqət mənən çürük insana qalib gəlməsində Hayquşun da köməyi olur. Çünki bu qadın genetik humanizm daşıyıcısıdır. Onun bir tərəfi hardasa azərbaycanlılıqla bağlıdır. Və hadisələrin gedişi göstərir ki, hər kəsin genindəki fəal güc müəyyən məqamda özünü büruzə verə bilir.

Əsər boyu erməni işğalının mahiyyətini açan səhnələr də az deyil. Hətta bir parçada biz Azərbaycan kəndlərindən qəsb olunmuş təkcə mal-heyvan görmürük, eyni zamanda Azərbaycan qadınlarının əlinin zəhməti olan xalı-xalça yığınlarını da görürük.

Əhmədin Nərgizlə bağlılığı əslində, yalnız mənəvi tərəf kimi özünü göstərir. On yeddi yaşlı gənc Əhməd Nərgizi özünün qüruru kimi qəbul edir. Məşhur filmlərin birində deyildiyi kimi, sanki o, Nərgizi ideal olaraq qəbul edir və onun naminə yaşamağın və onu qorumağın uğurunda mübarizə aparır.

Əsərin ikinci hissəsində ermənilərin talançılıq mahiyyətini göstərən bir parça var: *"Dağın ətəyində, nisbətən hamar yamacda əyləndilər. İlahi, burada nə qədər mal-heyvan vardı. Hamısını türk kəndlərindən yığıb gətirmişdilər. Yalnız heyvanlar deyildi, azərbaycanlıların dədə-babadan qalma varidatını - xalça-palazı, qab-qaşığı, elektrik avadanlıqlarını, yorğan-döşəyi, taxılı, unu... daşıyıb tökmüşdülər bura. Sanki depo idi, mal-material bazarı idi. Görünür, alçaqlar taladıqlarını burada pay-püş eləyir, İrana satdıqlarını satır, ən dəyərli saydıqlarını İrəvana aparırdılar. Vəziyyət bax belə idi"*. Təkcə bu epizod göstərir ki, Azərbaycanın talan olunmağının ilk nəsinə görə, şübhəsiz, qəhrəmanlar Samveli burada dəfn edirlər.

Biz əsərin ikinci hissəsində maraqlı insani məqamlarla da rastlaşırıq. Təkcə Samvellə bağlı yox, həm də Hayquşla bağlı fəsillər göstərir ki, müəllif simasını itirmiş insanların - erməni vandallarının, bütövlükdə erməni xalqının deyil, müəyyən zümrələrin, müəyyən dəstələrin nə olduğunun fərqindədir. Kiçik bir epizodda bir neçə erməni obrazının nə qədər çətinlikdə olsa da, insani simalarını itirmədiklərini göstərməsi bunun sübutudur ki, yazıçı üçün etnik münasibət davası yoxdur, insan və qeyri-insanilik davası var.

Əgər yazıçı insaniliyin fərqində olmasaydı, o, heç Hayquş və onun qızlarını müsbət yöndə təqdim edən təsvirlərə də getməzdi. Heç Samvel obrazını yaratmağa da çalışmazdı. Onu da deyək ki, Samvel obrazının Cəbrayılda belə bir prototipi vardı. Bu da onu göstərir ki, Ulduz Qasım "Solmayan nərgiz" romanını yaradarkən nə hadisələri, nə də obrazları göydən çəkib gətirmir. Yaddaşında olan xammaldan istifadə edir. Bu yaddaş isə yazıçının tapındığı qələm sahibinin ləyaqət obrazıdır.

Müəllif yazı boyu sanki göydən hadisələri müşahidə edir. Öz obyektivinin nəzərləri ilə ən müxtəlif tərəflərə diqqət yetirir. Harda ağ var, harda qara var - göstərməyə çalışır. Və zənnimcə, kifayət qədər onun çalışmaları uğurlu müşahidələrlə özünü təsdiq edir.

Əsərin ikinci hissəsi əsir düşənlərin təqibdən, ölümlərdən keçərək Arazın qırağına çatması ilə qurtarır.

15.08.2022